Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Noyabr 2021

http://ereforms.gov.az
info@ereforms.org

“

Azərbaycanın xarici borcu
ölkənin ümumi daxili məhsulunun,
sadəcə, 17,3 faizini təşkil edir.
Biz 2030-cu ilin sonuna qədər
bu rəqəmi 10 faizə endirməyi
planlaşdırırıq.
Ötən 18 il ərzində Azərbaycanda
yoxsulluq səviyyəsi 49 faizdən
6 faizə enib. Ölkədə işsizlik təqribən
6 faiz səviyyəsindədir.

İlham Əliyev
Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının
XV Zirvə Toplantısında çıxışı
28.11.2021



# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 4

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ____ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 23

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

## 2021-ci ilin yanvar-oktyabr ayları ərzində 16,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## 2021-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2,1 milyard ABŞ dolları təşkil etmişdir

2021-ci ilin 10 ayı ərzində Azərbaycanın ixracı **16,8 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **2,1 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **607,2 milyon ABŞ dolları** və ya **42 faiz** artıb. 2021-ci ilin 10 ayı ərzində qeyri-neft ixracında yeyinti məhsulları **3,2%** artaraq **582,2 milyon ABŞ dolları** ilə əsas paya malik olub. Müvafiq dövr ərzində qeyri-neft ixracında qara metallar və onlardan hazırlanan məmulatlar 3,2 dəfə, mis və ondan hazırlanan məmulatlar 2,2 dəfə, pambıq lifi 87,6%, alüminium və ondan hazırlanan məmulatlar 61,7%, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 59,2%, üzvi-kimyəvi birləşmələr 40,6%, qiymətli metallar və ondan hazırlanan məmulatlarda isə 4,3% artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə oktyabr

ayı üzrə xarici ticarət həcmi **2,2 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım **50,4 faiz** təşkil etməklə **244,6 milyon ABŞ dolları** olub. 2021-ci ilin oktyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac **76,5 milyon ABŞ dolları**, qeyri-yeyinti məhsulları üzrə isə **2,1 dəfə** artaraq **168,1 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (166,1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (160,7 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (130 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2021-ci ilin yanvar-oktyabr ayları ərzində Rusiya Federasiyasına 665,4 milyon ABŞ dolları, Türkiyəyə 509,4 milyon ABŞ dolları, İsveçrəyə 184,1 milyon ABŞ dolları, Gürcüstana 131,5 milyon ABŞ dolları və ABŞ-a 60,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (78,9 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (54,4 milyon ABŞ dolları) və Braziliya üçüncü (16,3 milyon ABŞ dolları) olub.

2021-ci ilin oktyabr ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (20,1 milyon ABŞ dolları) birinci, karbamid (19,9 milyon ABŞ dolları) ikinci və meşə fındığı (19,7 milyon ABŞ dolları) üçüncü olub.

# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI noyabr

**2020**
oktyabr

**162,6** mln

**2021**
oktyabr

**244,6** mln

**+50,4%**



# 2021-Cİ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI noyabr



# 2021-Cİ İLİN OKTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)






Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2021 | 2020 |
|---|---|---|
| Qızıl | 166,1 | 158,7 |
| Pambıq mahlıcı | 160,7 | 94,7 |
| Tomat (pomidor) | 130 | 173 |
| PP İlkin formalı polipropilen | 96,4 | 54,5 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 80,4 | 31,5 |
| Meşə fındığı | 75,6 | 84,4 |
| Karbamid | 69,8 | 9 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 61,2 | 29 |
| Metanol (metil spirti) | 60,2 | 42,3 |

# 2021-Cİ İLİN OKTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI noyabr

| | 2021 | 2020 |
|---|---|---|
| Xurma | 20,1 | 19,7 |
| Karbamid | 19,9 | 0,4 |
| Meşə fındığı | 19,7 | 17 |
| Metanol (metil spirti) | 11,5 | 6,9 |
| Pambıq mahlıcı | 11,1 | 12 |
| Nar | 11 | 13,6 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 10,9 | 0,2 |
| PP İlkin formalı polipropilen | 9,5 | 1,4 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 8,6 | 1,2 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2021-ci ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “Local Garden” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Baku Steel Company” MMC, “Sun Food” MMC, “P-Aqro” MMC, Hidayətov Təyyar Hidayət oğlu, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, “Bulder 007 LTD” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “Azergold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərenerji” ATSC, “Azərbaycan Hava Yolları” QSC, “Azəripək” MMC, “Azərbaycan Dəmir Yolları” QSC, “Naxçıvan MR Dövlət Energetika Xidməti”.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI noyabr



# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" ASC 39 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 41 ölkəsinə **39 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **91 faizini** təşkil edib.

2021-ci ilin oktyabr ayında isə "Azərkosmos" ASC dünyanın 33 ölkəsinə **6,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2021-ci ilin yanvar-oktyabr ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə 10 milyon ABŞ dolları ilə ABŞ, 8,6 milyon ABŞ dolları ilə Fransa, 7,4 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 6,9 milyon ABŞ dolları ilə Malayziya və 1,5 milyon ABŞ dolları ilə BƏƏ qərarlaşıb.

2021 İXRAC İCMALI noyabr

# 2021-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 39 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 10 mln $ | ABŞ |
| 8,6 mln $ | Fransa |
| 7,4 mln $ | Birləşmiş Krallıq |
| 6,9 mln $ | Malayziya |
| 1,5 mln $ | BƏƏ |

| 2020 | | 2021 |
|---|---|---|
| 37,8 mln $ | +3,2% yanvar-oktyabr | 39 mln $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 960,9 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin oktyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **124,4 milyon manat** təşkil edib. 2021-ci ilin yanvar-oktyabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **960,9 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

2021 İXRAC İCMALI noyabr

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

| | 2019 | 2020 | 2021* |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 72,2 |
| Fevral | 85,3 | 72,9 | 112,2 |
| Mart | 98 | 53,9 | 93,2 |
| Aprel | 103,2 | 19,7 | 64 |
| May | 100,9 | 24,3 | 81,3 |
| İyun | 115,1 | 23,7 | 90 |
| İyul | 134,6 | 23 | 95,1 |
| Avqust | 137,4 | 25,6 | 104,2 |
| Sentyabr | 106,2 | 25,9 | 124,3 |
| Oktyabr | 104,7 | 24,9 | 124,4 |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 1073,7 | 379,1 | 960,9 |

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 623 milyon ABŞ dolları təşkil etmişdir

2021-ci ilin oktyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **31,1 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-oktyabr aylarında Azexport.az portalına **398,7 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin oktyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq yağı, çay, zəli, tütün, un, tikinti materialları, yağ, şərab, bal, velosiped, armudu stəkan, qənnadı məhsulları və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 oktyabr tarixinə kimi (58 ay ərzində) Azexport.az portalına dünyanın 238 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 623 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI noyabr









# 2021-Cİ İLİN OKTYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin noyabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 23 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin noyabr ayı ərzində 29 hüquqi və fiziki şəxs tərəfindən 188 dəfə müraciət daxil olmuşdur. Ümumilikdə **485 ədəd sertifikat** (132 ədəd mənşə, 300 ədəd fitosanitar 43 ədəd baytarlıq, 9 ədəd CİTES, 1 ədəd mədəni sərvətlərin mühafizəsi şəhadətnaməsi) verilib.

Cari ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **23 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma, qarışıq şirələr, nar çaxırı, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, biyan kökü, kokos lifi, tibbi zəli, arpa, torf, günəbaxan tumu, noxud, buğda, çuğundur əzməsi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan mədəsi, pikellənmiş mal dərisi, dondurulmuş toyuq ayaqları, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, qonur ayı, iribuynuzlu heyvan bağırsağı, xromlanmış iribuynuzlu mal dərisi, dondurma məhsulu, kondisioner,

paltaryuyan maşın, elektrik ütü, fen, televizor, ətçəkən, soyuducu, dondurucu, elektrik plitə, samovar, pendir, yağ, torf, polad armatur yayması, polad boru, taxta paletin ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr-37,9%, pambıq mahlıcı-36,4%, polad boru-13,8%, meyvə şirələri-1,8%, süd məhsulları-1% ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 24 ölkəyə (İsveçrə-37,9%, Türkiyə-37,2%, Gürcüstan-9,2%, Rusiya-7,8%, Qazaxıstan-2,2%, digər ölkələrə (ABŞ, Belarus, Polşa, Kanada, Koreya, BƏƏ, İran, İraq, Sinqapur, Tatarıstan, Rumıniya, Qətər, Azərbaycan (Duty Free), Fil Dişi Sahili, Honq-Konq, Tayvan, Ukrayna, Vyetnam, Yaponiya )) - 5,7% ixrac edilmişdir. İxrac olunan məhsulların avtomobil nəqliyyatı ilə-53,1%, hava nəqliyyatı ilə-38%, dəmiryolu nəqliyyatı ilə- 8,4%, qarışıq nəqliyyat ilə ixracı isə-0,5% təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin noyabr ayı ilə müqayisədə ixracda 6,3 milyon ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

2017-ci ildən 2021-ci ilin dekabr ayına qədər “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **688 milyon ABŞ dolları** təşkil edib.



# 2021-Cİ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)






# CARİ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

2021
İXRAC İCMALI
noyabr

| | |
|---|---|
| İsveçrə | 37,9% |
| Türkiyə | 37,2% |
| Gürcüstan | 9,2% |
| Rusiya | 7,8% |
| Qazaxıstan | 2,2% |
| Digər ölkələr | 5,7% |



# CARİ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ





Meyvə şirələri 1%

Süd məhsulları 1,8%

Polad boru 13,8%

9,1% Digər məhsullar

37,9% Qiymətli metal külçələr

36,4% Pambıq mahlıcı

# CARİ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ





Avtomobil nəqliyyatı

**53,1%**

Hava nəqliyyatı

**38%**

Dəmiryolu nəqliyyatı

**8,4%**

Qarışıq nəqliyyat

**0,5%**



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

http://ereforms.gov.az

/iqtisadiislahat